Razılaşdırılmışdır:

Azərbaycan Respublikası
Mərkəzi Bankının sədri

____________ E.S.RÜSTƏMOV

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 18 iyun 2013-cü il tarixli 6/41 saylı Qərarı ilə təsdiq edilmişdir.
Mərkəzi Seçki Komissiyasının sədri

_____________ M.M.PƏNAHOV

**Azərbaycan Respublikası Prezidentinin seçkilərində seçki fondlarında qalan pul vəsaitlərinin geri qaytarılması, ödənişsiz efir vaxtı və dövri nəşrlərdə dərc yerinin ödənilməsi qaydaları haqqında**

**T Ə L İ M A T**

Bu Təlimat Azərbaycan Respublikası Prezidentinin seçkilərində seçki fondlarında qalan pul vəsaitlərinin geri qaytarılması, habelə saçkiqabağı təşviqat məqsədilə ayrılmış ödənişsiz efir vaxtı və dövri nəşrlərdə dərc yerinin ödənilməsi qaydalarını müəyyən etmək məqsədilə Azərbaycan Respublikası Seçki Məcəlləsinin (bundan sonra – Seçki Məcəlləsi) 94.1-ci maddəsinə əsasən hazırlanmışdır.

**1. Namizədlərin seçki fondlarında qalan pul vəsaitlərinin geri qaytarılması qaydaları**

1.1. Seçki fondlarında qalan pul vəsaitlərinin geri qaytarılması və seçkiqabağı təşviqat məqsədilə ayrılmış ödənişsiz efir vaxtı və dövri nəşrlərdə dərc yerinin ödənilməsi qaydaları Seçki Məcəlləsinin 90.5-ci, 90.7-ci, 195-ci, 196-cı və 197-ci maddələri və bu Təlimatla müəyyən edilir.
1.2. Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasında (bundan sonra – Mərkəzi Seçki Komissiyası) qeydə alınmamış prezidentliyə namizədmaliyyə hesabatı təqdim edilənədək seçki fondunun xərclənməmiş pul vəsaitlərini köçürülən ianələrin məbləğlərinin proporsional nisbətinə uyğun olaraq ianəçi vətəndaşlara və hüquqi şəxslərə qaytara bilər. Qeydə alınmamış namizəd bu hüquqdan istifadə etmədikdə, xərclənməmiş pul vəsaiti müvafiq olaraq dövlət büdcəsinə köçürülür.
1.3. Namizədlərin seçki fondlarının xüsusi hesabında qalmış pul vəsaitini Mərkəzi Seçki Komissiyasının yazılı göstərişinə uyğun olaraq müvafiq bank səsvermə günündən 60 gün keçdikdən sonra onun hesabına köçürməlidir.
1.4. Namizəd öz statusunu itirdikdə namizədlərin üzərinə qoyulmuş öhdəliklər namizəd, qeydə alınmış namizəd sayılmış vətəndaşın üzərinə qoyulur.

**2. Seçkiqabağı təşviqat üçün ayrılmış ödənişsiz efir vaxtı və dövri nəşrlərdə dərc yerinin ödənilməsi qaydaları**

2.1. Prezidentliyə qeydə alınmış namizədlər (bundan sonra – namizədlər) təsisçiləri dövlət orqanları, təşkilatları, idarələri olan və ya dövlət büdcəsindən maliyyələşdirilən, verilişləri Azərbaycan Respublikası ərazisinin yarısına, yaxud yarısından çoxuna (həmçinin azına) yayımlanan ictimai teleradio verilişləri təşkilatlarına, o cümlədən onların müvafiq bölmələrinə və dövri nəşrlərin redaksiyalarına müvafiq olaraq pulsuz efir vaxtının və dövri nəşrlərdə ayrılmış yerin dəyərini tam həcmdə ödəməlidir. Mərkəzi Seçki Komissiyası Prezident seçkilərinin nəticələrinin rəsmi dərc edildiyi gündən sonra 3 gün müddətində həmin namizədlərin adlarını, onların ünvanını, istifadə edilmiş pulsuz efir vaxtının və dövri nəşrdə ayrılmış yerin dəyərinin ödənilməsi barədə bildirişlərin təsdiq edilmiş surətlərini müvafiq teleradio verilişləri təşkilatlarına və dövri nəşrlərin redaksiyalarına göndərir.
2.2. Bu Təlimatın 2.1-ci bəndində göstərilən teleradio verilişləri təşkilatları və dövri nəşrlərin redaksiyaları Prezident seçkilərinin nəticələrinin rəsmi dərc edildiyi gündən sonra 10 gün müddətində prezidentliyə namizədlərə istifadə edilmiş pulsuz efir vaxtının dəyəri və dövri nəşrdə ayrılmış yerin həcmi və dəyəri haqqında, özlərinin hüquqi ünvanı və bank rekvizitləri barəsində müvafiq məlumat göndərirlər.
2.3. Pulsuz efir vaxtının və dövri nəşrdə ayrılmış yerin dəyəri namizədlərə verilmiş efir vaxtının və dövri nəşrdə ayrılmış yerin ümumi həcminin teleradio verilişləri təşkilatlarının və dövri nəşrlərin redaksiyalarının müəyyənləşdirdiyi efir vaxtının və dövri nəşrdə yerin qiymətinə vurulması yolu ilə müəyyən edilir.
2.4. Namizədlər təşviqat tədbirlərinin (müzakirələrin, dəyirmi masaların və s.) birgə keçirilməsi yolu ilə pulsuz efir vaxtından istifadə etdikdə, hər bir namizədin qaytardığı pul vəsaitinin həcmi teleradio verilişləri təşkilatları tərəfindən onların iştirak etdikləri birgə təşviqat tədbirlərinin hər birinin iştirakçılarının ümumi sayına proporsional olaraq bərabər bölünməsi yolu ilə müəyyənləşdirilir.
2.5. Namizədlər püşkatma keçirildikdən sonra pulsuz efir vaxtından imtina etdikdə və bu barədə efirə çıxmağa 2 gün qalmış müvafiq teleradio təşkilatlarına məlumat verdikdə, ayrılmış pulsuz efir vaxtının dəyəri ödənilmir.
2.6. İctimai teleradio təşkilatı və dövri nəşrlərin redaksiyaları səsvermə günündən başlayaraq 12 ay müddətində Mərkəzi Seçki Komissiyasına pulsuz efir vaxtının və dövri nəşrdə ayrılmış yerin dəyərini tam ödəməmiş namizədlər haqqında məlumat verirlər.

2.7. İctimai teleradio təşkilatına  və dövri nəşrlərin redaksiyalarına pulsuz efir vaxtının və dövri nəşrdə ayrılmış yerin dəyərinin ödənilməsinədək seçki fonduna  ianə köçürmüş vətəndaşlara və hüquqi şəxslərə seçki fondlarının xərclənməmiş pul vəsaitlərinin qaytarılması qadağandır.
2.8. Seçki fondunda pul vəsaiti olmadıqda və yaxud çatışmadıqda, verilmiş pulsuz efir vaxtının və dövri nəşrdə ayrılmış yerin dəyərinin ödənilməsi namizədliyi irəli sürülmüş (və ya qeydə alınmış) vətəndaşın öz vəsaiti hesabına həyata keçirilir.

**3. Yekun müddəalar**

3.1.   Bu Təlimat qüvvəyə mindiyi gündən Mərkəzi Seçki Komissiyasının 4 iyul 2008-ci il tarixli 6/23-10 saylı Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Prezidentinin seçkilərində prezidentliyə namizədlərin, qedə alınmış prezidentliyə namizədlərin aldıqları pul vəsaitlərinin geri qaytarılması qaydaları haqqında" Təlimat qüvvədən düşmüş hesab edilir.